# İSTEDADLI ALİM HAQQINDA GÖZƏL KİTAB

**Bu yaxınlarda mən "Müəllim" nəşriyyatı tərəfindən nəfis halda nəşr edilmiş "Eldar Məmmədbəyli - Alimin və mütəfəkkirin ömrünün səhifələri" adlı 390 səhifəlik kitabla tanış oldum. Kitabı yubatmadan mütaliəyə başladım. Həmin kitab həmkarım - kimya elmləri doktoru, professor Eldar Hüseynqulu oğlu Məmmədbəyli haqqındadır.**



Alimin 80 illik yubileyi ilə əlaqədar qələmə alınmış xatirələr, elmi yaradıcılığından bəhs edən esse və məqalələr toplusu halında işıq üzü görmüşdür.Həmçinin alimi tanıyan digər peşə adamlarının onun həyatının maraqlı məqamları, ümumilikdə ömür yolu haqqında yazıları verilmişdir. Kitabı zənginləşdirən məqamlardan biri isə yubilyarın özünün yazdığı həyatı, doğulub böyüdüyü məkan, soy-kökü, eləcə də qurduğu ailəsi haqqında materialdır.

Kitabın redaktoru tanınmış yazıçı-filosof, Əlisa Nicatdır. Haqqında əvvəllər də yazmışdır. O yubiley kitabına geniş əhatəli, gözəl redaktor sözü qələmə almışdır. Yazıda belə cümlələr vardır: "Kitabda toplumun müxtəlif zümrələrinin, ayrı-ayrı sənət sahiblərinin Eldar müəllim haqqında ürək sözləri, fikirləri verilmişdir. Çıxış edən alimlər onun əmək və elmi fəaliyyətinin müxtəlif aspektləri, apardığı işlərin faydalılığı və aktuallığı barədə fikirlər söyləmişlər. Müəlliflər onun həyat fəaliyyətinin müxtəlif sahələrini öz baxış prizmaları ilə işıqlandırmağa çalışmışlar. Çox maraqlıdır ki, professorun bir alim kimi fəaliyyəti haqqında istər Respublikamızın tanınmış alimlərinin, istərsə də dünyanın tanınmış alimlərinin fikri üst-üstə düşür. Qeyd olunur ki, onun seçdiyi elm sahəsi aktualdır, apardığı tədqiqatlar müasir tələblərə uyğun şəkildə yerinə yetirilir. Bütövlükdə, kitabdakı yazı karvanında iştirak edən müəlliflərin məqalələrində Eldar müəllimin örnək olan bir alim, nümunəvi bir insan, haqqədalət tərəfdarı, vətənini, dövlətini ürəkdən sevən bir vətəndaş obrazının konturları əks olunur". Yubilyar haqqında həqiqət necə də dəqiq və aydın ifadə edilmişdir. Redaktor yazısını belə bitirir: "Əminəm ki, professor Eldar Hüseynqulu oğlu Məmmədbəylinin80 illik yubileyinə həsr olunmuş bu kitab rəğbətlə oxunacaq,elmə, zəhmətə, vətənpərvərliyə, mərdliyə münasibəti aşılamağa meyl yaradacaq".

İlk fəsil alimin doğulub böyüdüyü məkan, soy-kökü və ailəsi haqqındadır. Yubilyar doğulub böyüdüyü ailəni, kəndi, dağları səmimiyyətlə təsvir edir. Valideynləri haqqında, hətta, onların soyu haqqında ətraflı məlumat verilir.

Kitabın növbəti fəsli alimin həyatı, elmi, pedaqoji, habelə digər fəaliyyətləri haqqında yazılar toplusundan ibarətdir. Onları kimyaçı alimlərimiz yazsalar da xoşagələn haldır ki, yubilyarın təkcə elmi işlərini işıqlandırmaqla məhdudlaşmamış, təhsil, elmi kadrlar hazırlanması və ictimai sahədəki fəaliyyətini də qeyd etməklə diqqətə çatdırmışlar. Akademik Əjdər Məcidovun məqaləsində Eldar müəllim haqqında yazılmışdır: "Eldar müəllimlik dəfə xlor tərkibli norbornen törəmələrini optiki aktiv formada sintez etmişdir, asimmetrik sintezin ilk inkişaf dövrlərində bu sahədə işləyən ilk pionerlərdən biridir. Onun apardığı işlər dünyada asimmetrik sintez sahəsində tanınmış nüfuzlu alimlər: K.Narasaka, H.B. Kaqan, K.Koqa və digərləri tərəfindən qəbul edilmiş və bu işlərə yüksək qiymət verilmişdir. Müalicəvi neftlərin optiki aktivliyinin öyrənilməsi sahəsində geniş tədqiqat işləri aparılmış və yüksək nəticələr əldə edilmişdir".

AMEA-nın müxbir üzvü Məhəmməd Babanlı yazır: "Yapon (K.Koqa və b., 1979) və amerika (V.R. Rouşet və b., 1982) alimləri tərəfindən Eldar müəllimin bu işləri prioritet kimi qəbul edilmiş və inkişaf etdirilmişdir. Daha sonra bu işlərə dünyanın bir sıra aparıcı alimlərinin əsərlərində istinadlar edilmişdir (Y.Mori, 1982; M.Noqradi, 1989; K.Narasaka, 1991; H.V. Kaqan, V.D. Riant, 1992 və s.).

Rusiyalı alimlər də yubilyarın əldə etdiyi elmi nəticələri yüksək qiymətləndirmişlər. REA-nın görkəmli kimyaçı alimləri: "Jurnal Orqaniçeskkoy Ximii" jurnalının baş redaktoru, MDU-nun professoru, akademik İ.P. Beletskaya, uzun müddət EÜBİ-nin direktoru işləmiş akademik Y.N. Bubnov, KFİ-nin laboratoriya müdiri, professor R.Q. Kostyanovski və başqaları Eldar müəllimin işlərinə yüksək qiymət vermişlər.

Məqalə müəllifi daha sonra yazır: "Eldar müəllim yüksək ixtisaslı kimyaçı kadrların yetişdirilməsi sahəsində də səmərəli fəaliyyət göstərir. Onun elmi rəhbərliyi və məsləhətçiyi ilə 6 fəlfəsə doktorluğu və 3 elmlər doktorluğu dissertasiyası işi yerinə yetirilmiş və uğurla müdafiə edilmişdir. O, həmçinin bir çox dissertasiya işlərinin rəsmi opponenti olmuşdur.

Professor Eldar Məmmədbəyli AMEA NKPİ-nin Elmi Şurasının, həmçinin institut nəzdindəki Dissertasiya Şurasının, "Azərbaycan Əczaçılıq və Farmakoterapiya", "Neft kimyası və neft emalı prosesləri" jurnallarının Redaksiya şurasının üzvüdür.

Bu fəsildə tanınmış rus alimi Konstantin Koçetkovun "Tanınmış alim, etibarlı dost" adlı təbrik məqaləsi də yer almışdır. O, Rusiya EA Element-Üzvi Birləşmələr İnstitutunun laboratoriya müdiri, D.İ. Mendeleyev adına Rusiya Kimya-Texnologiya Universitetinin "Biotibbi preparatların kimyası və texnologiyası" kafedrasının professorudur. O yazır: "Çox enerjili və müvəffəqli insan olan professor E.H. Məmmədbəyli gələcək birgə işlərimizin aparılması haqqında institutlarımızın arasında rəsmi beynəlxalq elmitexniki müqavilənin bağlanmasına çalışırdı. Onun səyi nəticəsində2005-ci ildə AMEA ilə REA arasında bağlanmış Sazişin tematik planına professor E.H. Məmmədbəylinin rəhbərlik etdiyi iki elmi istiqamət daxil edilmişdi.

Qeyd etmək istəyirəm ki, uzun illər bakılı alimlərlə birgə işlər yerinə yetirmiş və Eldar Məmmədbəylini yaxşı tanıyan akademiklər İrina Petrovna Beletskaya, Yuri Nikolayeviç Bubnov və professor Remir Qriqoryeviç Konstyanovski vaxtıyla onun namizədliyini AMEA-nın müxbir üzvlüyünə təkidlə təqdim etmişlər. Bu isə onun böyük elmi xidmətlərinin və yüksək insani keyfiyyətlərinin şübhəsiz sübutudur".

Yubilyarın yetirməsi, kimya üzrə fəlsəfə doktoru İsa Cəfərovun hazırladığı yazıda fərqli məqamlara rast gəlirik. O, rəhbəri haqqında yazır: "Eldar müəllim öz doktorant və dissertantları ilə münasibətlərini xoş ünsiyyət, demokratik prinsiplərlə qurur, o, inzibati amiranəlik üsullarından çox uzaq bir insandır. Bütün bunları şəxsən mənə qarşı olan münasibətində görmüşəm. Bunlarla yanaşı o, elmi işlərdə əməkdaşlarına qarşı ciddi və prinsipial mövqe sərgiləyir. Eyni zamanda, əməkdaşlarına və tələbələrinə əlindən gələn köməyi əsirgəmir. Eldar müəllimin rəhbərliyi, təmənnasız və xeyirxah münasibəti nəticəsində kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almağa nail oldum.

Təbrik edən müəlliflərindən biri tibb elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Yaqub Məmmədovdur. O yazır: "Azərbaycanda optiki fəal maddələrin laboratoriya şəraitində optiki aktiv şəkildə alınması sahəsində ilk pionerlərindən biri olduğundan bu sahədən elə həvəslə danışırdı ki, qarşımda bir fanatik elm adamı dayandığını hiss edirdim. Eldar müəllimin rəhbərliyi ilə sintez edilən yeni kimyəvi birləşmələrin antimikrob xassələrinin tədqiqi sahəsində bizim universitetin əməkdaşları ilə birlikdə elmi tədqiqat işləri aparılır. Alınan yüksək nəticələri onlar birgə dərc edirlər. Sevindirici haldır ki, o, oxuduğu əczaçılıq fakültəsi ilə həmişə əlaqə saxlayır.

Mən Eldar müəllimin Azərbaycanın milli azadlıq hərəkatında və müstəqillik uğrunda mübarizədə fəal vətəndaş mövqeyindən iştirak etdiyini xüsusi qeyd etmək istəyirəm. O, Azərbaycanın müstəqilliyinin onun üçün hər şeydən üstün olduğunu həmişə qeyd edir".

Tibb sahəsi mütəxəssislərindən daha üç alimin təbriki kibabda öz əksini tapmışdır. Onların da məğzini oxuculara çatdırmaq tam yerinə düşərdi. Tibb elmləri doktoru, professor, əməkdar müəllim Akif Qurbanov yubilyarı "görkəmli alim, fədakar və yorulmaz tədqiqatçı", fəlsəfə elmləri doktoru, biologiya üzrə fəlsəfə doktoru, dosent Fəxrəddin Ağazadə "ədalətli, dönməz insan" və biologoya üzrə fəlsəfə doktoru, dosent Hüseyn Abıyev isə "təvazökar, təmənnasız və alicənab insan" adlandırmışdır.

Üçüncü fəslə professor Eldar Məmmədbəylinin publisistik və bədii əsərləri daxil edilmişdir. Müxtəlif mövzularda qələmə alınmış və oxucuda xoş təəssürat oyadan elmi-publisistik məqalələr respublikamızın nüfuzlu qəzet və jurnallarında dərc edilərək geniş ictimaiyyətə çatdırılmışdır. Burada alimin Naftalan neftinin tədqiqi işlərinə dair müsahibəsi də vardır. Eyni zamanda Eldar müəllimin "Sarıtel" adlı şeiri də yer almışdır.

Sonuncu fəsildə yubilyarın elmi əsərlərinin biblioqrafiyası, elmi rəhbərlik, təltiflər, rəylər, zəmanətlər, fotoşəkillər toplanmışdır. Alimin ümumilikdə dərc edilmiş 480-dən artıq əsərinin burada bir qismi göstərilir. Elmi məqalələrin adlarından onların dəyərlilik dərəcəsi, müxtəlif ölkə jurnallarının adlarından isə necə nüfuzlu məcmuələrdə yer aldıqları məlum olur. Onların bir qismi yubilyarın müxtəlif illərdə çəkilmiş şəxsi şəkilləridir. Həmçinin ailə üzvləri, dost-tanışlari ilə birgə çəkilmiş şəkillər də vardır. Şəkillər də sanki dil açaraq çox məqamlardan danışır. Eldar müəllim doğma respublikamızın guşələrini həvəslə gəzir, xarici ölkələrə səfər edir. Şəkillərin digər qismi isə yerli və əcnəbi həmkarları ilə olanlardır. Bu şəkillər qalereyası bir daha göstərir ki, professor Məmmədbəyli geniş maraq dairəsinə malik və ünsiyyətli şəxsdir. Elmi əlaqələr yaratdığı görkəmli alimlərlə də birgə şəkilləri verilir. Rəhbəri olduğu laboratoriyanın kollektivi ilə də bir neçə şəkil burada yer almışdır. Kitab epiloqla bitir. Epiloqa yubilyar əlavə yazmışdır. O, bu bölmədə bəzi fikirlərini oxucularla bölüşməyi vacib hesab etmişdir. Həmin fikirlər də səmimiyyətlə söylənildiyindən elə oxucu tərəfindən də səmimiyyətlə qarşılanır.

Müxtəlif sahələrin mütəxəssisləri olan onlarla insanın hörmət, diqqət və zəhməti ilə yoğrulmuş bu sanballı əsər fikrimcə istedadlı və yüksək nəticələr əldə etmiş alimimizə əslində dəyərli yubiley hədiyyəsidir. Eyni zamanda yazılardan belə qənaətə gəlmək mümkündür ki, onilliklər ərzində tanıdığım Eldar Məmmədbəylini digərləri də xalqımızın layiqli övladı kimi tanıyır.

Sonda isə hörmətli həmkarım professor Eldar Məmmədbəyliyə möhkəm sağlamlıq, ürəyi istəyən qədər üzün ömür, xeyir-bərəkət, xoş günlər və elmimiz naminə, xalqımızın sağlamlığı naminə yeni uğurlar arzulayıram.

(Məqalə geniş formada "Bakı-Xəbər" qəzetinin bakixeber.com saytında 26.04.2022 verilib)

***Rəsul RƏXŞANLI***
***kimya üzrə fəlsəfə doktoru***